Ədəbiyyat QƏZETİ

# Ağacavad Əlizadənin anadan olmasının 95 illiyi ilə bağlı tədbir



Bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin Muğan bölməsinin təşkilatçılığı ilə tanınmış şair, tərcüməçi Ağacavad Əlizadənin anadan olmasının 95 illiyi ilə əlaqədar Salyan Rayon Mərkəzi kitabxanasında ədəbi-bədii tədbir keçirilmişdir.

Tədbirin aparıcısı, AYB Muğan bölməsinin sədri, yazıçı-publisist Nəbi İbrahimli şairin həyat yolu haqqında, onun yaradıcılığının poetik xüsusiyyətləri barədə məruzə etmişdir. Şairin ailəsinin yaxın dostu, Ənvər Ağamalıyev, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Zabil Pərviz, Rayon Ziyalılar birliyinin sədri A.Piriyev, Rayon Müharibə və Əmək veteranları şurasının sədri V.Əsgərov, "Qələbə" rayon qəzetinin əməkdaşı, şair-publisist Ə.Məmmədli, Rayon Mərkəzi kitabxanasının direktoru S.Əliyeva, Rayon Dövlət Kukla teatrının direktoru L.Hüseynova şair A.Əlizadənin poetik yaradıcılığı və tərcümə fəaliyyəti barədə danışmış, xatirələrini söyləmiş, keçən əsrin 50-60 -cı illərindən başlayaraq yaxın dostları Ə.Kürçaylı, X.R.Ulutürk, O.Rza və başqaları ilə birlikdə onun yerli yazarların, gənc ədəbi qüvvələrin püxtələşməsində mühüm xidməti olduğunu qeyd etmişlər. Şairin böyük oğlu Vüqar Əlizadə çıxış edərək ailəsi adından atası - A.Əlizadənin 95 illiyi ilə əlaqədar ədəbi-bədii tədbirin təşkilatçılarına, zəhməti olanlara dərin minnətdarlığını bildirmişdir. Şairin kiçik oğlu Mətin Əlizadə atasının rəsmi olan portretini Mərkəzi kitabxanaya hədiyyə etmişdir.

Rayon Mədəniyyət Mərkəzinin "Muğan" xalq çalğı alətləri ansamblının rəhbəri N.Məmmədovun, müğənnilər - B.Zamanov və R.Məhərrəmovun ifasında şairin sözlərinə bəstələnmiş mahnıların ifası məclis iştirakçılarına xoş ovqat bəxş etmişdir.

24 iyun 2023.- S.10